Ədəbiyyat qəzeti

5 dekabr / 2020

# Hər şey axır, hər şey dəyişir...

*Hərdən illər öncə yazdığım yazılar və ya verdiyim müsahibələr gözümə sataşır. Sonrakı ağlımla fikirləşirəm ki, gərək filan yazını yazmayaydım, ya da filan sözü başqa cür deyəydim. Müəllimim - Kamal Abdullanı öz aramızda yalnız "müəllim" adlandırırıq - əsərlərinin poetikası haqqında yazdığım yazılarda isə nəyisə dəyişmək barədə heç fikirləşməmişəm.*

*Ona görə ki, yazıçı və ictimai xadim kimi Kamal Abdulla fenomeni haqqında danışmağa hər zaman ehtiyac var. Həm də pafos, yersiz mübaliğə və dəbdəbəli ibarələrə yol vermədən. Xüsusən də bu yubiley günlərində: Ekklesiastın kitabında deyildiyi kimi, daşları toparlamaq vaxtıdır.*

*Öncə qeyd edim ki, yaşadığımız dövrün ümummədəni kontekstini nəzərə aldıqda, ənənəvi dəyərləndirmə kriteriyalarının meydan suladığı bir vaxtda, yəni bütün əlverişsiz şərtlərə rağmən Kamal Abdulla özü özünü yaratmış adamdır. Demək lazımdırmı ki, tutalım, Rusiyada, Türkiyədə bədii əsərlərin struktur, semiotik, stilistik analizi, mikrotəhlilləri aparıldığı halda, bizdə yeddi dərədən su gətirən "tənqid" anlayışı hökm sürməkdəydi və Kamal Abdullanın sintaksisində səhvlər axtarırdı. Bu mənada bizim bəzi sənətkarlar vaxtilə Dostoyevskini rus dilinin qaydalarını pozmaqda ittiham edən tənqidçilərdən bir addım da qabağa getməmişdilər. Ona görə, Azərbaycan ədəbiyyatı sferasındakı indiki dözülə bilən, yeni gerçəkliyin yaranmasında Kamal Abdullanın əməyi böyükdür.*

*Kamal Abdulla göstərdi ki, insanın qət etdiyi mənəvi yolu arşınla, sajenlə ölçmək cəhdləri arxaizmdir.*

*Göstərdi ki, kimin deməyindən asılı olmayaraq, həqiqət müqayisədə aşkarlanmır, illah da bədii mətnlərin müqayisəsində. Bu zaman aşkarlanan nəsnə təhlil olunan obyektlərin bu və ya digər keyfiyyətidir. Həqiqət isə bir səciyyəvi xüsusiyyət demək deyil, sonsuz sayda xarakteristikalar məcmusudur.*

*Göstərdi ki, onun bədii mətnlərdə modelləşdirdiyi dünya istər ölkədə, istərsə də onun hüdudlarından kənarda böyük bir auditoriyanı əhatə edə bilər və bu auditoriyanı əsas etibarilə onun özü formalaşdırıb. Diqqətlə baxanda görməmək mümkün deyil: onun bütün davası mifdən yazıya, şifahi ədəbiyyatdan müəllif mətninə aparan yolu, kollektiv əməyin məhsulu kimi, heç bir üslubi özəlliyi olmayan saysız mətnlərin boğanağından qurtulmağın yolunu mürgülü insanlara göstərməkdir.*

*Bu mənada Kamal Abdullanın əməllicə rezonans doğurmuş "Yarımçıq əlyazma"sı və bütün yaradıcılığı tək əldən çıxan səsdir, bu səsin doğurduğu effektdir.*

*Rəhmətlik Elçin Səlcuq Kamal Abdullanın yaradıcılığından bəhs edən "Tənhallığın sirri" adlı kitab yazıb, çox qiymətli kitabdır. Bu kitabda bütün yazılanlara əlavə olaraq demək istəyirəm ki, Kamal Abdullanın təkcənəliyi Andersenin nağılındakı məşhur fənərin təkcənəliyi deyil: onun həyatını və yaradıcılığını bütöv bir ktab kimi götürsək, tənhalıq ideyası burada ayrıca xətt və missiyadır. Və bu missiya kitabın bütün personajlarının - həm obrazların, həm də onların müəllifinin - həyatına əlavə rəng qatır, onlara yeni mənalar qazandırır. Bu, "tənha və qərarsız" Feniksin təkcənəliyidir; tənhalıq onun öz seçimi deyil. Aristotel deyir ki: "Tənha adamlar ya Tanrıya çevrilir, ya da quduzlaşır, vəhşiləşir", amma bu, özlərini bilə-bilə tənhalığa düçar etmiş adamlar haqqındadır...*

*Kamal Abdulla yeni dövrün yazarı kimi sübut etdi ki, ədəbiyyat (o ədəbiyyat ki, min cür tərifi var, çoxu da bir-birilə uyuşmur) - hansısa gerçəklikləri, maraqlı həyat situasiyalarını görmək və təsvir etmək bacarığı demək deyil, yəni təkcə bu deyil. Ədəbiyyat daha çox ilk baxışda bizə adi görünən, hətta bayağı təsir bağışlayan və ya ümumiyyətlə fikir vermədiyimiz məqamları həqiqətə, təkzibolunmaz fakta çevirmək qabiliyyəti və istedadıdır.*

*Usta Sənətkarın 70 yaşının tamam olması ərəfəsində qısaca olaraq bunları demək istədim.*

*Yaşasın, dünya durduqca var olsun!*

***Etimad BAŞKEÇİD***